28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR!

20 (1326) 23-29 may 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet · Qiyməti razılaşma yolu ilə · Qəzet 1999-cu ildən çıxır

## İRAN İLƏ AZƏRBAYCAN ARASINDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR ƏN YÜKSƏK SƏVİYYƏYƏ QALXIB

“Bu gün İran-Azərbaycan dostluğunun nə qədər möhkəm olmasını bütün dünya görür. Bu dostluğun dərin kökləri, dərin tarixi var”.

Bu fikirləri Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev səsləndirib. “Əsrlər boyu İran və Azərbaycan xalqları bir yerdə yaşayıb-yaratmışlar və bu gün bu möhkəm zəmin üzərində qurulan dövlətlərarası münasibətlər, hesab edirəm ki, ən yüksək səviyyəyə qalxıb”, - deyə dövlətimizin başçısı əlavə edib. O, deyib: ki, bölgənin sabitliyi üçün, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün İran-Azərbaycan dostluğu, qardaşlığı önəmli amildir. Dövlətimizin başçısı, həmçinin bildirib: ***“Biz bütün beynəlxalq təşkilatlarda, üzv olduğumuz təşkilatlarda bir-birimizi dəstəkləyirik və bundan sonra da bu dəstəyi göstərəcəyik”.***

## “QIZ QALASI” HİDROQOVŞAĞININ AÇILIŞI VƏ “XUDAFƏRİN” HİDROQOVŞAĞININ İSTİSMARA VERİLMƏSİ TARİXİ HADİSƏDİR”




Bu sözləri Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev söyləyib.

Dövlətimizin başçısı bu nəhəng obyektin inşasında iştirak etmiş bütün İran mütəxəssislərinə, fəhlələrinə, dostlara təşəkkürünü bildirib.

## “QARABAĞ, ŞƏRQİ ZƏNGƏZUR VƏ NAXÇIVANDA “YAŞIL ENERJİ” MƏNBƏLƏRİNİN YARADILMASI BÜTÜN BÖLGƏYƏ FAYDA VERƏCƏK”

“Azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələri, eləcə də Naxçıvan bölgəsi Azərbaycanda “yaşıl enerji” zonaları elan edilib. Bu bölgələr ərazimizin təxminən 25 faizini təşkil edir”.

Bu sözləri Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev söyləyib.

Dövlətimizin başçısı vurğulayıb ki, bu bölgələrdə “yaşıl enerji” mənbələrinin yaradılması bütün bölgə üçün fayda verəcək.

## TÜRKİYƏ AZƏRBAYCANIN MÖVQEYİNİ DƏSTƏKLƏYİR



***“Azərbaycan Ermənistanla uzunmüddətli sülhə sadiqliyini dəfələrlə nümayiş etdirib. İrəvandan da oxşar mövqe gözləyirik”.*** Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada Nazirlər Kabinetinin iclasının yekunlarına dair brifinqdə bildirib.

Türkiyə lideri əmin edib ki, Ankara Bakı ilə İrəvan arasında uzunmüddətli sülhün nail olunmasına maksimum töhfə verməyə davam edəcək.

“Türkiyə Azərbaycanın mövqeyini dəstəkləyib və dəstəkləyir”, - deyə Türkiyə Prezidenti vurğulayıb.

Eyni zamanda, siyasətçi Ermənistan tərəfindən işğal olunmuş 4 kəndin Azərbaycana qaytarılması barədə razılaşmadan məmnunluğunu ifadə edib.

## LATVİYA ŞİRKƏTLƏRİ DƏ QARABAĞDA BƏRPA İŞLƏRİNDƏ İŞTİRAK EDƏ BİLƏRLƏR



Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Latviya Seyminin sədri Dayqa Mierinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə qeyd olunub ki, 2018-ci ildə 100 illik yubileylərini qeyd etmiş Azərbaycan və Latviya bənzər tarixə malik dost və strateji tərəfdaş ölkələrdir.

Ölkəmizin işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, həmçinin "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin icrası barədə məlumat verən Milli Məclisin sədri mina terrorunun keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılması prosesini ciddi ləngidən amillərdən olduğunu bildirib.

Azərbaycana səfəri çərçivəsində Qarabağ regionuna səfərindən söz açan Latviya parlamentinin sədri Füzuli və Şuşa şəhərləri ilə tanışlıq zamanı gördükləri barədə təəssüratlarını bölüşüb.

Dayqa Mierina Azərbaycanın regionda davamlı sülhün bərqərar olunması, delimitasiya-demarkasiya işlərinin aparılması, həmçinin ölkəmizin bölgədə apardığı genişmiqyaslı quruculuq işlərindəki rolunu təqdir edərək deyib ki, gələcəkdə latviyalı şirkətlər də Qarabağda bərpa və yenidənqurma işlərində iştirak edə bilərlər.

## “İRANIN AZƏRBAYCANLA ƏLAQƏSİ QONŞULUQ ƏLAQƏSİNDƏN DAHA ÜSTÜNDÜR”



***“Biz təbii ki, qardaş, qonşu və dost ölkələrik. İranın Azərbaycanla olan əlaqəsi qonşuluq əlaqəsindən daha üstündür. Bu, qohumluq əlaqəsidir”.*** Bu sözləri Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində çıxışı zamanı İran Prezidenti Seyid İbrahim Rəisi deyib.

O bildirib ki, bu əlaqə və bağ çox möhkəm, çox dərin bir bağdır.

Bu bağ, bu əlaqə iki ölkənin dərin tarixi, mədəni və dini əlaqələrinə söykənir.

## QEYRİ-REGİONAL ÖLKƏLƏRİN BİZİM İŞLƏRİMİZƏ MÜDAXİLƏSİ QƏBULEDİLMƏZDİR

“Bölgənin inkişafı bölgədəki ölkələrdə yaşayan xalqların iradəsi ilə təmin olunmalıdır. Qeyri-regional ölkələrin bizim işlərimizə müdaxiləsi qəbuledilməzdir”. Bu fikirləri Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev səsləndirib.

***“Əgər kimsə - buradan minlərlə kilometr uzaqlıqda yerləşən ölkələrin rəhbərləri bu bölgədə hər hansı bir nəticə əldə etmək istəyirlərsə, bizimlə danışsınlar. Yersiz və lazımsız müdaxilə bu günə qədər heç bir səmərə verməyib və verməyəcək”,*** - deyə dövlətimizin başçısı əlavə edib.

## “İRAN PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİ AZƏRBAYCAN XALQININ YADDAŞINDA AZƏRBAYCAN DÖVLƏTİNİN VƏ XALQININ BÖYÜK DOSTU KİMİ QALACAQ”



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də İran İslam Respublikasının ölkəmizdəki səfirliyində, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı verərkən deyib.

**O, bildirib:**

- İran İslam Respublikasının Prezidenti cənab Seyid İbrahim Rəisinin faciəli şəkildə həlak olması bizim hamımızı dərindən sarsıtdı. Onunla bərabər xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və digər şəxslər faciəli şəkildə həlak oldular. Allah onlara rəhmət eləsin. İran xalqının başı sağ olsun. Bu, böyük itkidir.

Amma təsəlli verən odur ki, o, öz həyatını İran xalqının inkişafına həsr etmişdir. İran dövlətinin milli maraqlarının müdafiə edilməsində onun xüsusi rolu var idi.

Əfsuslar olsun ki, gələcək layihələrin icrasını görmək ona nəsib olmadı. Tale ilə hər kəs barışmalıdır. Ancaq yenə də deyirəm, təsəlli verən amil odur ki, öz həyatını İranın inkişafına qurban vermişdir və bizim yaddaşımızda, İran xalqının, Azərbaycan xalqının yaddaşında o, parlaq şəxsiyyət, böyük dövlət xadimi, Azərbaycan dövlətinin və xalqının böyük dostu kimi qalacaq.

# “Biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq”



***Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşərkən deyib. O, bildirib:***

“Ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk. Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur. Bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür.

Nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər və bildiyimə görə, təmaslar çox səmərəli, müsbət olub. Həlli vacib olan çoxlu məsələlər var. Qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasının, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə ki, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq. Nümayəndə heyətlərinin üzvləri bu məsələni də müzakirə ediblər. Nümayəndə heyətlərinin tərkibi də çox mətləblərdən xəbər verir. Məhz gündəlikdə olan məsələlərdən danışılıb. Amma, əlbəttə, nümayəndə heyətlərinin üzvlərinin cavabdeh olduqları məsələlərlə kifayətlənmək olmaz. Belə ki, əməkdaşlığımız yetərincə çoxplanlıdır, yaxşı keçmişə və yaxşı gələcəyə malikdir”.

* * * *

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıb və şəhərin Baş planı ilə tanış olublar. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Belarus Prezidenti Aleksandr Lukaşenkoya işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər barədə məlumat verib.

* * * *

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Şuşa şəhərinə səfər ediblər. Onlar Şuşada Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxıblar.

* * * *

Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya Şuşanın Baş planı barədə məlumat verilib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində “Heydər Əliyev və Qarabağ” sərgisinə baxıblar.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Cıdır düzündə olublar.

* * * *

Mayın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonuna səfər edib. Dövlətimizin başçısı Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin təməlqoyma mərasimində iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Karxulu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Sarıcallı kəndinin təməlini qoyub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan rayonunun Ağalı kəndində “Ağalı” hotelinin açılışında iştirak ediblər.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlini qoyub.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Zəngilan” və “Şayıflı” Su Elektrik stansiyalarının açılışlarını edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoyub.

# “Şərq Tərəfdaşlığı” ölkələrində radiotezlik spektrindən səmərəli istifadə müzakirə edilib



Gürcüstanın paytaxtı Tbilisi şəhərində Şərq Tərəfdaşlığı Ölkələrinin Elektron Kommunikasiya Tənzimləyiciləri Şəbəkəsi (EaPeReg) çərçivəsində Spektr Ekspertləri İşçi Qrupunun (SEWG) 17-ci görüşü keçirilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyindən bildirilib ki, İKTA əməkdaşlarının da iştirak etdiyi tədbirdə telekommunikasiya sahəsi ilə bağlı təqdimatlar nümayiş olunub və müvafiq mövzular ətrafında müzakirələr aparılıb.

Beynəlxalq Mobil Telekommunikasiya (IMT) üçün əlavə radiotezlik zolaqlarından istifadə, mobil operatorlar tərəfindən spektrin səmərəli istifadəsinin qiymətləndirilməsi və radiotezliklərin bölüşdürülməsi məsələləri tədbirin əsas müzakirə istiqamətlərini təşkil edib. Eyni zamanda, Ümumdünya Radiorabitə Konfransının (ÜRK-23) nəticələri və ÜRK-27-nin əsas mövzuları, IMT şəbəkələrində xidmət keyfiyyəti (QoS) və bu sahədə ölçmələrin aparılması, o cümlədən coğrafi informasiya sistemləri (GIS) və Genişzolaqlı Xəritələmə qabaqcıl Avropa ölkələrini təmsil edən ekspertlərin diqqətində olub.

# Son beş ildə sığorta bazarının həcmi 2 dəfə böyüyüb

“Sığorta bazarının miqyasının və dərinliyinin genişləndirilməsi başlıca prioritetlərdəndir”.

Bunu Mərkəzin Bankın (AMB) İdarə Heyəti sədrinin birinci müavini Rəşad Orucov Bakıda keçirilən “Katastrofik risklərə qarşı dayanıqlı maliyyə sistemi konfransı”nda deyib.

O qeyd edib ki, son 20 ildə Azərbaycan əhəmiyyətli inkişaf mərhələsi keçib.



*“Ölkəmizdə makroiqtisadi inkişafda dayanıqlılıq təmin edilib, iqtisadi artımın inklüzivliyi təmin olunub. Hazırda Azərbaycan iqtisadiyyatı özünün yeni inkişaf mərhələsinə daxil olub. Son illərdə maliyyə sahəsi davamlı inkişafla xarakterizə olunur. Mərkəzi Bank maliyyə bazarlarının sabitliyi və dayanıqlılığının təmin edilməsi sahəsində tədbirlər həyata keçirir”,* - deyə sədrin birinci müavini əlavə edib.

# Ötən il Azərbaycanda sığorta təminatı verilən risklərin həcmi ÜDM-i 4 dəfə üstələyib

“Sığorta sektoru hazırda iqtisadiyyatın ən dinamik inkişaf edən sahəsidir. Ötən il sığorta haqlarının həcmi rekord səviyyədə artaraq 1,2 milyard manatı ötüb”.

Bu barədə Mərkəzi Bankın baş direktoru Ziya Əliyev Bakıda keçirilən “Katastrofik risklərə qarşı dayanıqlı maliyyə sistemi konfransı”nda deyib.

O qeyd edib ki, hesabat dövründə sığortalanmış predmetlərin sayı 7 milyon 300 minə yaxın olub.



*“Ötən il sığorta ödənişlərinin həcmi 600 milyon manata çatıb. Bu da sektorun əhalinin və biznesin zərərlərinin kompensasiyasında mühüm rol oynamağa başladığını göstərir. Sığorta təminatı verilən risklərin həcmi yarım trilyon manatı ötüb ki, bu da ÜDM-in dörd qatından çoxdur. Sığorta agentlərinin yeni nəslinin yetişdirilməsi hər zaman diqqətimizdədir”,* - deyə baş direktor əlavə edib.

# Əmlak sığortası üzrə maariflənmənin aşağı olması maliyyə itkisinin artmasına səbəb olur

“Əhalinin əmlak sığortası üzrə maariflənmənin aşağı olması insanlar üçün maliyyə itkisinin daha da artmasına səbəb olur”.

Bunu Azərbaycan Sığortaçılar Assosiasiyasının Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova Bakıda keçirilən “Katastrofik risklərə qarşı dayanıqlı maliyyə sistemi konfransı”nda deyib.

O bildirib ki, bu risklərə qarşı dayanıqlı maliyyə sistemi yaratmaq üçün maarifləndirmənin artırılması vacibdir.



*“Dünya praktikasında təbii fəlakətlərə qarşı maliyyə dayanıqlılığının artırılması üçün atılan addımlardan biri əmlakın sığortalanmasıdır. Düşünürəm ki, ölkəmizdə də bu sığorta növünün əhali arasında daha geniş miqyasda yayılması təbii fəlakət risklərinə qarşı dayanıqlığın artırılmasında mühüm addım olacaq.*

*Əminəm ki, bugünkü konfransın yekununda öyrənəcəyimiz təcrübə, atılacaq addımlar maliyyə itkisinin qarşısını almağa, maliyyə dayanıqlılığının yüksəldilməsinə kömək edəcək”,* - deyə ASA Müşahidə Şurasının sədri əlavə edib.

# İZİA və “Ximqrad Texnopolis” Azərbaycanda birgə şirkət yaradacaq

Tatarıstanda keçirilən “Rusiya – İslam dünyası: KazanForum” XV Beynəlxalq İqtisadi Forumunda İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) ilə Tatarıstanın “Ximqrad Texnopolis”i arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

İZİA-dan bildirilib ki, sazişə əsasən İqtisadi Zonaların İnkişafı Agentliyi ilə “Ximqrad Texnopolis” Azərbaycanda birgə şirkət yaradacaq. Yaradılacaq şirkət Sumqayıt Kimya Sənaye Parkının ərazisində ayrılmış 10 hektarlıq xüsusi zonanın operatoru qismində Rusiyadan, Tatarıstandan, Özbəkistandan olan iş adamlarının Azərbaycana cəlb olunması və sözügedən sənaye zonasında istehsal müəssisələrinin yaradılmasında aktiv iştirak edəcək.




Forum çərçivəsində agentlik “İslam Əməkdaşlıq Təşkilatı ölkələrində azad iqtisadi zona və sənaye parkları - beynəlxalq sənaye korporasiyası üçün yeni imkanlar” mövzusunda keçirilən panel sessiyada təmsil olunub. Sessiyada İZİA-nın İdarə Heyətinin sədri Seymur Adıgözəlov ölkəmizdə fəaliyyət göstərən sənaye zonaları, burada investorlar üçün yaradılan biznes imkanları barədə təqdimatla çıxış edib.

# Çində Orta Dəhliz və Azərbaycanın bu dəhlizdəki mühüm rolu müzakirə edilib

Çin Xalq Respublikasında səfərdə olan “Azərbaycan Dəmir Yolları” QSC-nin (ADY) sədri Rövşən Rüstəmov “Çin Dəmir Yolları” dövlət korporasiya şirkətinin sədri cənab Liu Jenfanq ilə görüşüb.

Görüşdə Azərbaycan və Çin dəmir yolları arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri, hər iki tərəfi maraqlandıran aktual məsələlər ətrafında geniş müzakirələr aparılıb.

Rövşən Rüstəmov hər iki ölkənin ali rəhbərliyinin görüşləri zamanı Orta Dəhlizlə bağlı müzakirələri xatırladaraq




Azərbaycan və Çin arasında müxtəlif sahələrdə olduğu kimi, dəmir yolu nəqliyyatı sahəsində də əlaqələrin genişləndiyini vurğulayıb.

Söhbət zamanı ADY nümayəndə heyəti Orta Dəhlizin inkişafı istiqamətində Azərbaycan tərəfinin həyata keçirdiyi layihələr, yeni reallıqlar və imkanlar barədə geniş təqdimatla çıxış edib. Təqdimatda ADY-nin cari ilin dörd ayı ərzində Orta Dəhlizlə yük daşımalarının həcminin 2023-cü illə müqayisədə 35 faiz artdığı, Çinin Sian limanından bu dəhlizlə ümumilikdə 60 blok qatarın yola salındığı, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yük daşımaların bərpa edildiyi və onun yükburaxma qabiliyyətinin artıq illik 5 milyon tona çatdırılması barədə məlumat verilib.

# AXC dövründə aparılan pul islahatları haqqında

*"Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Ancaq buna baxmayaraq, Azərbaycan Demokratik Respublikası bir çox işləri görə bildi. Dövlət atributları təsis edildi və bu gün bizim dövlət bayrağımız, dövlət himnimiz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş dövlət atributlarıdır..."*

*İlham ƏLİYEV*

Müstəqil dövlət atributu kimi, milli pul vahidinin buraxılması Cümhuriyyətin maliyyə siyasətinin mühüm uğuru idi. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar – "Bakı bonları" buraxıldı (bu zamanadək tədavüldə "Nikolay" pulları və "Kerenski" pul vahidləri işlənib). İlk dəfə 1918-ci il fevralın 5-də Zaqafqaziya komissarlığı tərəfindən, sonra isə müstəqil Cənubi Qafqaz respublikaları arasında razılaşma əsasında Bakı bonları buraxılmışdır. Bakı bonları alıcılıq və ödəmə vasitəsi kimi istifadə olunan qısamüddətli borc öhdəliyi daşıyan pul nişanları idi. 1918-ci ilin yazında Bakı şəhər özünüidarə orqanı və şəhər təsərrüfatı şurası da bonlar buraxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin yeni bonlar buraxılması haqqında Gürcüstan və Ermənistanla apardığı danışıqlar, irəli sürülən şərtlər Azərbaycan üçün sərfəli olmadığından uğursuzluqla nəticələndi. Bununla əlaqədar 1918-ci il iyulun 18-də Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin sədri Fətəli xan Xoyski İstanbuldakı Azərbaycan nümayəndə heyətinə Türkiyədə Azərbaycan bonlarının hazırlanmasını sifariş etməyi tapşırdı. Türkiyədəki danışıqlar nəticəsində kredit biletləri buraxmaq qərara alındı. 1918-ci il sentyabrın 22-də respublikada pul dövriyyəsi məsələsi həll olunana qədər 10, 25 və 50 manatlıq Bakı şəhər pul nişanlarının buraxılması qərara alındı. 1918-ci il oktyabrın 9-da hökumət respublikada dövriyyədə olan pul nişanları üçün vahid məzənnə müəyyən etdi. 1919-cu il yanvarın 27-də Gürcüstanla birgə Cənubi Qafqaz nümunəli 40 milyon bon buraxılması qərara alındı (respublikaların hərəsi 20 milyon bon almalı idi).

1919-cu il martın 30-da Cümhuriyyət hökuməti mövcud pul nişanlarından əlavə, 100 manatlıq pul nişanı buraxmağı qərara aldı. İyunun 6-da 100 manatlıq pul əskinaslarının Cənubi Qafqaz bonlarına sərbəst dəyişdirilməsinə icazə verildi. Martın 11-dən etibarən isə bonların buraxılması bərpa olundu. Aprelin 23-dən etibarən isə onların Azərbaycan bazarına buraxılmasına da icazə verilirdi.

1919-cu il dekabrın 1-də Parlamentin qəbul etdiyi qanuna əsasən, hökumətə Azərbaycan Xalq Cümhuriyyətinin 600 milyon manat məbləğində pul nişanlarını buraxmaq barədə icazə verildi. Bakı bonlarının buraxılması müstəqil dövlətin maliyyə-təsərrüfat işlərinin sahmana salınmasında və müstəqil maliyyə siyasətinin yeridilməsində əhəmiyyətli rol oynadı. Milli pul vahidinin möhkəmləndirilməsi, onun alıcılıq qabiliyyətinin qorunub saxlanması ilk vaxtlardan hökumətin iqtisadi siyasətinin əsas məsələsi idi. Çünki milli valyuta inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparmalı olurdu. Bu məqsədlə müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradıldı. 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açıldı. Dövlətin maliyyə-iqtisadi müstəqilliyinin təmin olunması məqsədilə yaradılan Azərbaycan Dövlət Bankı (ADB) Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə siyasətinin həyata keçirilməsini təmin edən mühüm dövlət qurumu idi. Nizamnaməyə görə, ADB-nin vəzifələri kommersiya banklarının vəzifələrindən geniş idi və o dövlət xarakterli bir sıra tapşırıqları, o cümlədən pul emissiyasının yerinə yetirilməsi, dövlətin maliyyə aparatı kimi müvafiq hallarda digər ölkələrin eyni orqanları ilə sazişlər bağlanması, valyuta məsələsinin tənzimlənməsi və s. funksiyaları yerinə yetirməli idi. ADB haqqında hazırlanmış qanun layihəsi 1919-cu il mayın 26-da Hökumət tərəfindən bəyənildi və Parlamentin təsdiqinə verildi. Bankın təsis edilməsi ölkənin iqtisadi-təsərrüfat həyatını möhkəmləndirmək zərurətindən irəli gəlmişdi. Kredit banklarına ümidini itirən əhali əmanətlərini oraya qoymurdu. Bu da əhalidə çox böyük məbləğdə dövriyyədən çıxmış pulun yığılıb qalmasına səbəb olmuşdu. Nəticədə bu, əlavə kağız pul kəsilməsi zərurəti doğurur, manatın alıcılıq qabiliyyətinə mənfi təsir göstərirdi. ADB-nin məqsədi pul tədavülünü asanlaşdırmaq, milli ticarət, sənaye və kənd təsərrüfatına yardım etmək, habelə pul sistemini möhkəmləndirmək idi. İlk vaxtlar bankın əsas kapitalı 500 milyon, ehtiyat kapitalı isə 20 milyon manata bərabər idi. Əsas kapitalı yaratmaq üçün hökumət ADB-yə əlavə olaraq, 50 milyonluq Azərbaycan və Zaqafqaziya əsginası verdi. Beləliklə, bank kağız pul kəsmək üçün müstəsna hüquqa malik oldu.

*Azərbaycan Demokratik Respublikasının pul nişanları (1919-1920)*







1919-cu il sentyabrın 18-də Dövlət bankının nizamnaməsi təsdiqləndi, sentyabrın 30-da onun təntənəli açılışı oldu. 1919-cu il sentyabrın 1-dən fəaliyyət göstərən Gəncə bankı isə oktyabrın 25-də qəbul olunmuş qanunla Dövlət bankının şöbəsi statusunu aldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ölkənin təsərrüfat-iqtisadi həyatını canlandırmaq və pul dövriyyəsini tənzimləmək məqsədilə Əmanət kassaları və Kiçik Kredit Məsələləri idarəsi yaradıldı.

Bakı, Gəncə, Ağdaş, Göyçay, Zaqatala, Qazax, Quba, Nuxa (Şəki), Salyan, Şamaxı, Şuşa və s. xəzinədarlıqları və onların qeydiyyatında olan poçt-teleqraf kassalarındakı mərkəzi əmanət kassaları açıldı. Əmanət kassalarının vəzifəsi artıq pul kütləsini dövriyyəyə cəlb etmək idi.

Əmanət kassalarının əməliyyatlarını inkişaf etdirmək və pul dövriyyəsinin qaydaya salınmasına, yəni əmanət kassalarında çek dövriyyəsinin tətbiqinə kömək etmək məqsədi ilə maliyyə nazirliyi bu sahədə dəyişikliklər aparılmasını nəzərdə tutmuşdu. Əmanət kassalarına nəzarət və rəhbərlik üçün Azərbaycan dövlət əmanət kassaları idarəsi yaradılmışdı. Ona kiçik kredit idarələrinə rəhbərlik və nəzarət etmək də həvalə olunmuşdu.

1920-ci il yanvarın 15-də Parlamentin təsdiq etdiyi qanuna uyğun olaraq, əsas kapitalın yaradılması və artırılması üçün kiçik kredit idarələrinə borc verilməsi nəzərdə tutulmuşdu. Bundan ötrü Azərbaycan əmanət kassaları və kiçik kredit idarələrinin sərəncamındakı xüsusi fonda xəzinə vəsaitindən 2 milyon manat ayrılmalı idi. Aprel işğalı (1920-ci il) nəticəsində digər maliyyə qurumları kimi əmanət kassaları və kiçik kredit idarələrinin fəaliyyəti də yarımçıq qaldı.

***Nəhayət, 18 oktyabr 1991-ci ildə Şimali Azərbaycanda suveren Azərbaycan Respublikası elan edildikdən sonra, yəni 11 fevral 1992-ci ildə Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasının Milli Bankının yaradılması haqqında", 15 iyul 1992-ci ildə isə "Azərbaycan Respublikasının milli valyutasının tədavülü haqqında" fərmanlar verdi. Azərbaycan SSR-in SSRİ tərkibinə qatılmasından və 1923-cü ildə onun ümumittifaq pul tədavülü sahəsinə daxil edilməsindən sonra dayandırılmış milli pul dövriyyəsi bu aktlar əsasında bərpa olundu.***






# MƏHSULDARLIQLA KEÇƏN İŞGÜZAR ÖMÜR YOLU

***Bu günlərdə Azərbaycanda bazar infrastrukturları sistemində özünəməxsus yer tutan milli auditin təşəkkülündə və inkişafında müstəsna xidmətləri olan mütəxəssislərdən biri Ramiz Qənizadənin 70 illik yubileyi tamam olur.***

R.Qənizadə 1954-cü il mayın 27-də Bakı şəhərində anadan olub. O, 1975-ci ildə Bakıda D.Bünyadzadə adına Xalq Təsərrüfat İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)) Xalq təsərrüfatının iqtisadiyyatı və planlaşdırma fakültəsini fərqlənmə diplomu ilə bitirərək 1977-1986-cı illərdə Ət və Süd Sənayesi Nazirliyində gənc iqtisadçı kimi əmək fəaliyyətinə başlayıb və pillə-pillə yüksələrək müxtəlif vəzifələrdə çalışıb, sonra isə 1986-1996-cı illərdə "Azəryeyintisənayesi" Dövlət Şirkətində nəzarət-təftiş şöbəsinə rəhbərlik edib.

Yüksək təşkilatçılıq bacarığı, özünə və həmkarlarına qarşı münasibətdə tələbkarlığı və səmimiyyəti çalışdığı kollektivlərin hamısında R.Qənizadəni böyük nüfuz sahibi kimi tanıtdırıb.

Şərəfli və məhsuldar əmək fəaliyyətinin sonrakı illəri isə ölkəmizdə audit sisteminin təşəkkülü və inkişafı ilə birbaşa bağlı olmuş, 20 ilə yaxın bütün bilik və bacarığını auditor xidmətinin inkişafı işinə həsr edib. Auditorlar Palatasının keçirdiyi tədbirlərdə öz fəal mövqeyilə daim fərqlənib.

Zəngin həyat təcrübəsi, səriştəliyi, obyektivliyi və nəcib insani keyfiyyətləri ölkənin auditorları və xarici həmkarlar arasında işgüzar münasibətlərin bərqərar olmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmiş, Azərbaycan auditorları ailəsində daim mehriban və sağlam münasibətlərin hökm sürməsinə töhfəsini verib.

***R.Qənizadə 1996-cı ilin may ayından 2009-cu ilin iyun ayınadək Auditorlar Palatasının Auditor Xidməti Departamentinin direktoru vəzifəsində işləyib.***

1997-ci ildə Avropa İttifaqının xətti ilə TACİS proqramı çərçivəsində həyata keçirilən "Azərbaycan Respublikası Auditorlar Palatasının audit keçirmə qabiliyyətinin gücləndi-



***Azərbaycan Respublikası Auditorlar Palatasının Fəxri üzvü - Fəxri Auditoru, zəhmətlə yüksələn, tələbkar insan, bacarıqlı təşkilatçı, gözəl ailə başçısı, qayğıkeş və mehriban iş yoldaşı Ramiz Tofiqi Qənizadənin 70 yaşı tamam olur.***

rilməsi" layihəsi ilə əlaqədar təşkil edilmiş "Mühasibat uçotu və audit texnikası" mövzusunda beynəlxalq kurslarını, Almaniya Federativ Respublikasının Qöttenqem Universitetində auditor kurslarını bitirib. 1996-2009-cu illərdə Auditorlar Palatasının İdarəetmə orqanı - Şuranın üzvü olmuş və uzun illər Palata Şurasının üzvü kimi fəaliyyət göstərmiş, bütün bilik və bacarığını, işə vicdanlı, obyektiv və məsuliyyətli münasibətilə milli audit sisteminin inkişafı işinə sərf edərək Palatanın əməkdaşları və üzvləri arasında böyük hörmət və nüfuz qazanmışdır. Auditorlar Palatası Şurasının üzvü kimi gündəliyə çıxarılan məsələlərin müzakirəsində fəal iştirakı ilə daim diqqət mərkəzində olmuş, Palatanın ölkəmizdə Beynəlxalq Audit Standartlarının tətbiqinə başlamasında yüksək xidmətlər göstərmişdir.

Eyni zamanda, müstəqil auditin qarşısında qoyulan məsələlərin həyata keçirilməsi məqsədilə 1998-1999-cu illərdə Azərbaycanda auditin ilk inkişaf konsepsiyasının, sonradan isə Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyalarının (2012-2020-ci illər) və (2021-2030-cu illər), auditə dair yeni qanunvericilik layihəsinin hazırlanmasında, eləcə də Auditorlar Palatasının ictimai həyatında iştirakı xüsusi diqqətə layiqdir. Böyük məmnunluqla qeyd etməliyik ki, Auditorlar Palatasının keçirdiyi beynəlxalq konfranslara dəstək göstərməklə yanaşı, həmin tədbirlərdə fəal iştirakı və orada yüksək səviyyəli çıxışları həmişə rəğbətlə qarşılanıb.

***R.Qənizadə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda 1999-cu ilin 26 iyun tarixində ABŞ Daxili Auditorlar İnstitutunun "Audit-Azərbaycan" bölməsinin yaradılmasında yaxından iştirak etmiş və 2011-ci ilədək həmin bölmənin vitse-prezidenti olub. Eyni zamanda R.Qənizadə 1999-cu ildə ABŞ Daxili Auditorlar İnstitutunun daxili auditor sertifikatını almış və Azərbaycanda auditin inkişafına və audit təcrübəsinin tətbiq edilməsinə dair bir sıra xüsusi ədəbiyyatların hazırlanmasında iştirak edib. O, həm də bir neçə tədris vəsaitlərinin və elmi-praktiki məqalələrin də müəllifidir.***

R.Qənizadənin peşəkarlığı ölkə miqyasında tanındığı üçün ona böyük etimad göstərilərək 2009-cu ildən Azərbaycan Respublikası Hesablama Palatasında şöbə müdirinin müavini vəzifəsinə təyin edilmiş və qısa müddətdə şöbə müdiri vəzifəsinə keçərək maliyyə nəzarəti sahəsində geniş təcrübəyə malik mütəxəssis kimi maliyyə-büdcə nəzarəti üzrə Palatanın həyata keçirdiyi işlərə öz mühüm töhfəsini verib.

Onun peşəkar fəaliyyəti dövlət səviyyəsində də dəyərləndirilərək Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 iyun tarixli 217 saylı Sərəncamına əsasən 3-cü dərəcəli dövlət müşaviri ixtisas dərəcəsi verilib, eyni zamanda möhtərəm Prezidentimizin 2017-ci il 21 iyun tarixli 3015 saylı Sərəncamına əsasən "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

R.Qənizadə 2020-ci il 01 yanvar tarixindən yenidən öz doğma kollektivi ilə işləmək üçün Auditorlar Palatasına qayıdır və Palatanın üzvü, "Q.R.T Audit" MMC-nin auditoru kimi bütün bilik və bacarığını, işə vicdanlı və məsuliyyətli münasibətilə müstəqil audit sisteminin inkişafı işinə sərf edərək, fəaliyyəti zamanı "Auditor xidməti haqqında", "Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarının, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamənin, Peşəkar Mühasiblərin Etika Məcəlləsinin, Beynəlxalq Audit Standartlarının, peşə etikası və əxlaq normalarına dair digər normativ hüquqi aktların tələblərinə sərbəst auditorlar və auditor təşkilatları tərəfindən daha dolğun riayət etmələri ilə bağlı zəruri tədbirlər həyata keçirir, peşə borcunu daim yüksək səviyyədə yerinə yetirməklə səmərəli fəaliyyət göstərərək Palatanın ictimai həyatında xüsusilə fərqlənən həmkarlarımızdandır.

***R.Qənizadə sadalanan məsul iş sahələrinin hamısında böyük nüfuz sahibi kimi tanınıb. Auditorların və Mühasiblərin beynəlxalq və regional qurumlarının keçirdiyi müxtəlif məclislərin dəfələrlə iştirakçısı olan R.Qənizadə hər yerdə ölkəmizi layaqətlə təmsil etmiş, Auditorlar Palatasının əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün səylərini əsirgəməmişdir.***

R.Qənizadənin ötən dövr ərzində audit qanunvericiliyinin təkmilləşdirilməsi, normativ aktların, metodik vəsaitlərin, proqramların və digər sənədlərin hazırlanması və tətbiqində, habelə səlahiyyətli dövlət orqanlarının sifarişli yoxlamalarının həyata keçirilməsində əməyi yüksək qiymətləndirilərək dəfələrlə təşəkkür elan edilmiş, "Fəxri Fərman"lara və nəhayət 2007-ci ildə Auditorlar Palatasının yüksək mükafatı olan "Fəxri Auditor" adına layiq görülmüş, eyni zamanda onun uzunmüddətli səmərəli fəaliyyətini və Azərbaycan auditinin inkişafına yönəlik dəyərli təklif və tövsiyələrini, habelə Auditorlar Palatasının məqsəd və vəzifələrinin həllində mühüm töhfəsi olduğunu nəzərə alaraq R.Qənizadəyə Palata Şurasının qərarı ilə "Fəxri üzv" statusu verilib.

Əqidəsi möhkəm, mənəviyyatı saf, davranışı sadə, təvazökar və təmənnasız olan Ramiz müəllim öz prinsipiallığı, vətəndaş mövqeyi, milli qeyrəti yüksək olan bir Azərbaycan övladıdır. O, dövlətinə, millətinə, xalqına və torpağına sadiq olmaqla, Ulu Öndərimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən başladığı əmək fəaliyyətindən daim fərəhlə danışır və bu gün həmin siyasətin uğurlu davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizin yüksələn dinamika ilə artan iqtisadi reallıqlarına, uğurlarına daim sevinməklə bərabər ictimai-siyasi proseslərdə də fəal iştirak edir.

Ömrünün 70 yaşını tamamlayan Azərbaycan auditorları ailəsinin sevimli üzvlərindən birini, ölkədə reallaşdırılan uğurlu iqtisadi islahatların həyata keçirilməsində özünəməxsus xidmətləri olan, ölkəmizdə və beynəlxalq aləmdə audit sahəsində böyük nüfuz sahibini, tanınmış mütəxəssisi, hörmətli həmkarımızı, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran və heç kimdən köməyini əsirgəməyən qayğıkeş insan, əməksevər və intizamlı həmkar, nümunəvi ailə başçısı, təcrübəli və bacarıqlı iş yoldaşı olan R.Qənizadəni yubileyi münasibətilə bir daha təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, əmək fəaliyyətində yeni-yeni uğurlar, ictimaiyyət arasında malik olduğu hörmət və nüfuzu daim qoruyub saxlamağı arzulayırıq. Qoy ömrünün sonrakı hər bir günü ona və ailəsinə yalnız həyat sevincləri bəxş etsin.

Yubileyiniz mübarək!

**Vahid Novruzov,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor**

**Fəxrəddin İsmayılov,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının sədr müavini**

**Səbuhi Gülməmmədov,**
**Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru**

## "STP Şirkətlər Qrupu" Qarabağ bölgəsində qurulan yeni stansiyanı avadanlıqla təchiz edib

Bu günlərdə "STP Şirkətlər Qrupu"na daxil olan "SOCAR STP" MMC-də istehsal edilən yükqaldıran kran Kəlbəcər rayonu Aşağı Vəng Su Elektrik Stansiyasına təhvil verilib.

Şirkətin Mexaniki Emal Zavodunda hazırlanan kran 40 ton yükqaldırma qabiliyyətinə malikdir. Aşırımı 17615 mm, nəzəri çəkisi 19 ton olan bu avadanlıq su elektrik stansiyasında turbinin quraşdırılması və təmiri üçün nəzərdə tutulub.

Məlumat üçün qeyd edək ki, SOCAR STP separatorlar, yüksək gərginlikli elektrik qülləli işıq dirəkləri, 200 tona qədər yerüstü kranlar, portal kranlar, dəniz kranları, istilik dəyişdiricilər, flanslar (dupleks, blind), dişli çarxların və hazır sxemlər (cizgilər) əsasında bir çox detalların (3-5 oxlu Torna/Frezləmə) istehsalını həyata keçirir. Həmçinin ağır mühəndislik və "OCTG Threading" (API, qazma borusu iplərinin kəsilməsi və təmiri) kimi xidmətlər təklif edir.

## BMT: Azərbaycanın COP29-a ev sahibliyi etməsi ölkə üçün böyük nailiyyətdir

"Azərbaycanın COP29-a ev sahibliyi etməsi ölkə üçün böyük nailiyyətdir və onun iqlim fəaliyyətlərinə güclü sadiqliyini nümayiş etdirir".

Bu fikirlər BMT-nin mətbuat xidmətinin AZƏRTAC-ın ABŞ bürosunun sorğusuna cavabında yer alıb. Bildirilib ki, BMT COP29-un sədrliyinə geniş miqyasda dəstək verir. ***"BMT İqlim Dəyişikliyi (BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası - UNFCCC) Katibliyi COP29-un sədrliyinə danışıqlar, əməliyyatlar (konfrans idarəçiliyi və logistika) və maraqlı tərəflər nöqteyi-nəzərindən texniki dəstək göstərir. Bununla yanaşı, BMT İqlim Dəyişikliyi BMT-nin qurumları ilə birlikdə COP29 komandasına və digər tərəflərə danışıqların aparılması da daxil olmaqla, potensialın artırılması dəstəyini koordinasiya edir"***, - deyə açıqlamada qeyd olunur.

Bildirilib ki, BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hart və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyevanın həmsədrliyi ilə BMT Qlobal COP29 İşçi Qrupunu təsis edib:

***"Ölkə səviyyəsində isə BMT komandası Azərbaycanda iqlim fəaliyyətlərini mobilizə etmək üçün bütün maraqlı tərəflərlə işləyir. Buna misal olaraq, BMT-nin Azərbaycan nümayəndəliyi tərəfdaşlarla birlikdə iqlim dəyişikliyi və ədalətli keçidlə bağlı ölkə boyu dialoq və fəaliyyətə təkan vermək üçün "29 iqlim müzakirəsi: COP29-a gedən yol" adlı təşəbbüs həyata keçirib".***



## Bu şəxslər gəlir vergisindən azad edilir



Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdiyi gəlirlər 2024-cü il martın 1-indən 9 ay müddətinə gəlir vergisindən azad edilir.

Bu, Milli Məclisin müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri 2024-cü il martın 1-indən 9 ay müddətinə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər 2024-cü il martın 1-indən 9 ay müddətinə vergidən azad olunur.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) bağlanılmış müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında malların idxalı 2024-cü il martın 1-indən 9 ay müddətinə ƏDV-dən azad olacaq.

# İnformasiya texnologiyalarının təhlükəsizlik çalarları və konseptual baxış

**1. Qadağan etmək yox, tənzimləmək, istiqamət vermək hər zaman daha münasib bir üsuldur.**

Böyük iqtisadiyyata sahib ölkələrin müxtəlif məşhur sosial şəbəkə platformaları var. Bunların bir qismi ABŞ, bir qismi Çin, bir qismi isə Rusiya seqmentinə aiddir. Bu sosial şəbəkələr arasında ciddi rəqabət var. Hər bir sosial şəbəkə qurucusu da öz istifadəçilərinin sayını artırmaq istəyir.

Hazırda 3 milyarddan çox istifadəçi sayı ilə birinci yeri tutan "Facebook"-dur. Amma Çinin sosial şəbəkəsi olan "TikTok"un da istifadəçisi kifayət qədər çoxdur. Bu sosial şəbəkənin alqoritması elə qurulub ki, burada insanlar daha tez məşhurlaşır. Burada bir video qısa müddətə böyük kütləyə çata bilir. Elə məhz buna görə də gün keçdikcə TikTok istifadəçilərinin sayı çoxalır. İnsanların pul qazanma istəyi və məşhurlaşma həvəsi onları bu sosial şəbəkəyə yönəldir. Buna görə də TikTok-dan istifadə sürətlə böyüyür. Bu da insanların pul qazanmaq üçün sosial şəbəkələrdə etdikləri qeyri-adekvat hərəkətlər, müxtəlif oyunlar, lazımsız canlı yayımlar və maraqsız məzmunların ortaya çıxmasına səbəb olur. İstifadəçilər diqqət cəlb etmək üçün heç bir məzmunu olmayan videolar çəkməyə başlayırlar, ümumiyyətlə son nəslin sosial şəbəkələrə yönəlməsi, onların aludəçisi olması, onlara maraq göstərməyi dövrün tələbi olması ilə bərabər, özü ilə birlikdə müəyyən ziyanlar da gətirir. Bu kifayət qədər vaxt itkisinə səbəb olur. Gənclər faydasız məzmunlarla məşğul olduqlarına görə daha yaxşı işlər görə bilmirlər. Mənfi işlərlə açıq məşğuliyyət çoxalır. Bu da xarakteri tam formalaşmamış insanları mənfi istiqamətə yönləndirə bilər. Hər bir sosial şəbəkə bu məsələnin bəlkə də fərqində olduğuna görə müəyyən



*Bəhruz Əliyev, İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

vaxt limiti qoymaq funksiyasını yaradıblar. Yəni, istənilən şəxs özü üçün sosial şəbəkələrdə vaxt limiti yarada bilər. Bu, çox yaxşı funksiyadır. Bütün istifadəçilərə tövsiyə olunur ki, onlar sosial şəbəkələrdə keçirdikləri zamanı nizamlasınlar.

Əlbəttə, "TikTok"u qadağan edərək, heç bir yerə gəlmək mükün deyil. Çünki qadağalar virtual aləmdə daha çox maraq doğurur. Buna görə də daim maarifləndirmə işləri görülməlidir. Sosial şəbəkələrin mənfi xüsusiyyətlərindən insanları uzaqlaşdırmaq üçün maarifçilik ən əhəmiyyətli bir məsələdir.

**2. İctimai elektron təhlükəsizlik tövsiyələri**

Təhlükəsizlik baxımından istifadəçilərə restoran, iaşə obyektləri və ictimai nəqliyyatda pulsuz Wi-Fi xidmətindən istifadəni tövsiyə etmirəm. Bu halda müxtəlif risklər yarana bilər. Şəbəkəyə qoşulan mənfi niyyətli istifadəçinin digər qoşulan şəxslərə müəyyən qədər zərər vermə ehtimalı var.

Onlar bəzi qurğular vasitəsilə başqa istifadəçilərin telefon və kompüterinə qoşularaq, fərdi məlumatlarına rahat şəkildə müdaxilə edə bilər, "backdoor" dediyimiz "arxa qapı" proqramlarını həmin cihaza qoşmaları da mümkündür. Mümkün riskləri nəzərə alaraq, hətta ictimai yerlərdə telefonların enerji ilə doldurulmasını da tövsiyə etmirəm. Çünki hər iki hal kifayət qədər risk yaradır.

İkinci əl smartfonlarda şəxsi məlumatlarımız olduğu üçün satılması məqsədəuyğun deyil. Smartfonlar evdə işlətdiyimiz diş fırçaları qədər diqqət edəcəyimiz əşyalardır. Buna görə də smartfonlarımızı da başqaları ilə bölüşməyimiz düzgün deyil. Diş fırçalarını gigiyena cəhətdən digərlərinə vermədiyimiz kimi, smartfonları da kibergigiyenik avadanlıq kimi digər insanlara verməməli və satmamalıyıq. Bəzi insanlar telefonları format edir ki, onun tərkibində heç bir məlumat saxlanmasın. Lakin xüsusi proqramlar vasitəsilə smartfonun yaddaşında olan şəkillər ilə gələcəkdə hər hansı bir şəxsi təzyiq və ya şantaj edə bilərlər.




Smartfonların kiməsə satılması və ya hədiyyə verilməsinin tərəfdarı deyiləm. Kompüterlərdə isə vəziyyət başqadır. Kompüterdəki yaddaş hissələrini çıxardaraq, özünüzdə saxlaya bilərsiniz. Lakin telefonlarda bu hal mövcud deyil. Çünki yaddaş birbaşa əsas karta inteqrasiya edilir və modul tipli olmur. Tövsiyə olunur ki, ikinci əl smartfonlar heç bir halda ailədən kənara çıxmasın. İstənilmədiyi təqdirdə ən yaxşı variant onun məhv edilməsidir. Bu formada biz şəxsi məlumatlarımızın kənara çıxmasından özümüzü qoruya bilərik.

Statistikaya əsasən, illər keçdikcə insanların əlində olan İT avadanlıqlarının sayının artmasına uyğun olaraq kiberhücumların da sayı çoxalmaqdadır. Hesabları ələ keçirmək üçün müxtəlif metodlardan istifadə olunur. Bunlardan biri də fişinq üsuludur. Belə ki, istifadəçiyə müxtəlif link göndərilir və o özünü bir növ həqiqi səhifə kimi göstərməyə çalışır. İstifadəçi hər hansı bir imkan əldə edəcəyinə aldanaraq, öz şifrəsini və hesabını bu səhifəyə daxil edir. Lakin təəssüf ki, aldadıcı səhifəyə daxil etdiyi hesab məlumatı və şifrəsi xakerlərin əlinə keçmiş olur. Bu formada hesab ikili identifikasiyadan keçməyibsə, çox rahat şəkildə üçüncü tərəfin əlinə keçən sosial şəbəkə hesabı xakerlər və ya dələduzlar tərəfindən müxtəlif formada istifadə olunur. Seçilən hədəfin hesabı ələ keçirildikdən sonra onun yazışma və digər şəxsi məlumatları müxtəlif məqsədlər üçün istifadə edilə bilər. Cəmiyyətdə bir qədər xüsusi yer qazanmış insanların şəxsi məlumatları əldə edildikdən sonra onlar dələduzlar üçün şantaj mənbəyinə çevrilir: Məsələn, ələ keçirilmiş hesabın geri qaytarılması müqabilində istifadəçidən külli miqdarda pul tələb edilə və həmin məlumatların yayılmamasına təminat verilə bilər. Eyni zamanda yüksək baxışa sahib, çoxlu izləyicisi olan səhifələri hörmətdən salmaq, onları bir növ dəyərsizləşdirmək məqsədilə də belə hücumlar həyata keçirilə bilər.

Amma əslində məlumatlar bir dəfə ələ keçirildikdən sonra hesab geri qaytarılsa belə, dələduzların əlinə keçən yazışmalar, şəkillər ömür boyu həmin insan üçün, şantaj obyekti ola bilər.

Bir çox sosial şəbəkələrin rəy bölmələrində bəziləri tərəfindən hesabın geri qaytarılması, şifrələrin sındırılması kimi müxtəlif növ xidmətləri təqdim etdiklərini yazırlar. Bu tipli şəxslərə inanmaq olmaz:

***Sosial şəbəkə hesablarının ovuna çıxan şəxslərin böyük qismi elə sosial şəbəkələrdə bu tipli elan verən, mənbəyi və şəxsiyyəti bəlli olmayan insanlar və ya dələduzlardır. Bu dələduzluq hallarından mümkün qədər uzaq durmaq, öz sosial şəbəkələrimizi təmiz mühitdə istifadə etmək lazımdır. Mobil və kompüter avadanlıqlarımızda pirat olmayan proqram təminatlarından istifadə etməli, "VPN" və ya digər fərqli üsullarla xüsusi imkanlar əldə etmək üçün cihazımıza hər hansı bir proqram yükləməməliyik. O zaman bizə olan hücumların sayının azaldığını və təhlükəsizliyimizin əvvəlkinə nisbətən daha yaxşı qorunduğunu görə bilərik.***

# Azərbaycanda elektron ticarət 2 dəfəyə yaxın artıb



Banklar və "Azərpoçt" MMC sistemləri üzrə aprel ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı ötən aya nəzərən 255 min ədəd artaraq 17 milyon 676 min ədəd təşkil etmişdir.

Mərkəzi Bankın aylıq Statistik bülletenində göstərilir ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 22.2% artmışdır. Ödəniş kartlarında artım debet kartları üzrə 22.9%, kredit kartları üzrə 17.5% təşkil etmişdir.

Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərmişdir. Belə ki, ay ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1.9 dəfə artmışdır.

2024-cü ilin aprel ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 6 milyard 147 milyon manat təşkil etmişdir. Həyata keçirilən nağdsız ödənişlərin 5 milyard 149 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 990 milyon manatı POS-terminallar, 8 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilmişdir. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 62%-ni təşkil etmişdir.

# Azərbaycanın təşəbbüsü ilə "Made in Turan" brendi yaradılıb

"Qazaxıstanda Azərbaycanın təşəbbüsü ilə türk dünyası markalarını birləşdirən "Made in Turan" brendi yaradılıb".

Bunu Trend-ə Azərbaycan Françayzinq Assosiasiyasının İdarə Heyətinin sədri Camid Mövsümov deyib.

O bildirib ki, markalaşmanın yaratdığı ən böyük təsirlərdən biri də insanda yaratdığı sahib olma hissidir. TDT-yə üzv ölkələrin vahid markalaşmaya keçid etməsi bu ölkələrin istehsal etdikləri məhsul, göstərdikləri xidmətə qarşı marağı daha da artıracaqdır.

"Made in Turan" markası dedikdə TDT-yə üzv ölkələrin istehsal etdiyi məhsulların vahid markalaşmaya keçid etməsi başa düşülür. "Made in Turan" markası üçün əldə olunacaq xüsusi güzəştlər sayəsində ölkələr arasında ticarət dövriyyəsi artacaq və iqtisadi əlaqələr möhkəmlənəcəkdir.

# "Norm" ASC ASİA-nın "Xalis Sıfır Sürətləndirici" təşəbbüsünə qoşulub

Azərbaycan Sement İstehsalçıları Assosiasiyasına üzv olan "Norm" ASC qurumun sement və beton sənayesində $CO_2$ emissiyalarının azaldılmasını nəzərdə tutan "Xalis Sıfır Sürətləndirici" (Net Zero Accelerator) təşəbbüsünə qoşulub. Şirkət assosiasiyanın 6-7 may tarixlərində təşkil etdiyi seminarlarda iştirak edərək, dayanıqlı inkişafla bağlı paylaşılan təcrübələrə və iqlim fəaliyyətinə yönəlmiş geniş müzakirələrdə yer alıb. 6 may tarixində "Norm" ASC assosiasiyanın üzvü kimi Avropa Sement Tədqiqatları Akademiyası (ECRA) ilə Anlaşma Memorandumunu da imzalayıb.



Bu tərəfdaşlıq sement və beton sənayesində dayanıqlı inkişafı dəstəkləmək və inşaat sahəsində bütün dəyər zənciri boyunca $CO_2$ emissiyalarını azaltmaq üçün beynəlxalq təcrübədən və yerli biliklərdən istifadə etməklə, eləcə də qanunvericilik və tənzimləmələrə nail olmaqla, Azərbaycanın sement sənayesi üçün "Xalis Sıfır Yol Xəritəsi" hazırlamaq məqsədi daşıyır.

Sement sənayesinin karbonsuz və dayanıqlı gələcəyinə doğru istiqamətlənən bu təşəbbüs Norm üçün böyük əhəmiyyət kəsb edir və şirkətin gələcəyə baxışını əks etdirir. Layihə boyunca Norm ətraf mühit və iqlimlə bağlı strategiyaları təşviq etmək və həyata keçirmək üçün dövlət qurumları, qeyri-hökumət təşkilatları və sənaye tərəfdaşları da daxil olmaqla, müxtəlif maraqlı tərəflərlə sıx işləyəcək.

# AMB-nin aktivləri artıb

Bu ilin yanvar ayının 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) aktivləri 34 milyard 793,463 milyon manat təşkil edib.

AMB-NİN maliyyə hesabatına istinadən xəbər verir ki, bu göstərici ötən il yanvarın 1-nə nisbətən 12,7% çoxdur.

Qeyd edək ki, 2023-cü ilin yanvar ayının 1-nə AMB-nin aktivləri 30 milyard 860, 987 milyon manat təşkil edib.




28
MAY
MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN XALQINI TƏBRİK EDİR, SUVEREN AZƏRBAYCAN DÖVLƏTİNƏ MÜSTƏQİLLİYİNİN DAHA DA MÖHKƏM OLMASINI ARZULAYIRIQ!
GƏNCƏ AVTOMOBİL ZAVODU


28
MAY
MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINI SƏMİMİ QƏLBDƏN TƏBRİK EDİRİK, DÖVLƏTİMİZƏ TƏRƏQQİ, XALQIMIZA XOŞ GÜZƏRAN VƏ ƏMİN-AMANLIQ ARZULAYIRIQ!
TuranBank
...Bizimlə etibarlıdır


Azərbaycan xalqını
28 May -
Müstəqillik Günü
münasibətilə təbrik edirik, tariximizin bu şərəfli səhifəsinin gələcək nəsillərimizə də örnək olmasını diləyirik!
AQRARKREDİT
SƏHMDAR KREDİT TƏŞKİLATI


«AZƏRAQRARTİKİNTİ» ASC
28 MAY -
Müstəqillik Günü münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edir, ən xoş arzularımızı bildiririk.
Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!

23-29 may 2024-cü il

## ABŞ-nin ən yüksək əməkhaqqı alan CEO-ları açıqlanıb



"The Wall Street Journal" 2023-cü ilin nəticələrinə əsasən ən yüksək mükafat (ümumi əməkhaqqı, bonuslar, opsionlar və s.) alan Amerikanın ən böyük ictimai şirkətlərinin baş direktorlarının siyahısını hazırlayıb. Məlum olub ki, ötən ilin sonunda bu şirkətlərdə baş direktorların orta əməkhaqqı 15.7 milyon dollar təşkil edib ki, bu da bir il əvvəlkindən 8.2% çoxdur.
2023-cü ildə alınan mükafatın məbləğinə görə birinci yerdə 162 milyon dollarla "Broadcom" yüksək texnologiyalı korporasiyaya rəhbərlik edən Çin əsilli top-menecer Hok Tandır. O, 2006-cı ildən bu vəzifədədir, şirkət bir neçə dəfə Tanın müqaviləsini uzadıb, çünki onun rəhbərliyi altında şirkət öz məqsədlərinə nail olub.
İkinci yerdə 151 milyon dollarla "Palo Alto Networks" kibertəhlükəsizlik şirkətinə rəhbərlik edən hind əsilli icraçı Nikeş Arora qərarlaşıb. Üçüncü yerdə 120 milyon dollarla "Blackstone" investisiya fondunun rəhbəri Stiven Şvarsman dayanır. "Charter Communications"ın rəhbəri Kristofer Uinfri isə 89 milyon dollarla dördüncü yerdədir. İlk beşliyi 66 milyon dollarla kredit skorinqi xidmətləri göstərən FICO (Fair Isaac Corporation) şirkətinin rəhbəri Uilyam Lansinq tamamlayır.
WSJ qeyd edir ki, 2023-cü ilin sonunda ən çox "Nvidia"nın baş direktoru Censen Huan (+215%, 34 milyon dollar), "Meta"nın rəhbəri Mark Zukerberq (+194%, 24.5 milyon dollar) və "Royal Caribbean Group" kruiz şirkətinin baş direktoru Ceyson Libertinin (+162%, 15 milyon dollar) mükafatı artıb.

## G7 Rusiyanın dondurulmuş aktivlərindən istifadəni müzakirə edəcək

G7 ölkələrinin maliyyə nazirləri Rusiyanın 300 milyard dollara yaxın dondurulmuş aktivlərindən istifadə üsullarını müzakirə edəcək.




24-25 may tarixlərində İtaliyada keçiriləcək görüşdə həmin aktivlərin Ukraynaya istiqamətləndirilməsi müzakirə olunacaq. ABŞ həmin aktivlərin istiqrazlara çevrilərək satılması yolu ilə büdcə gəlirlərinin artırılmasını təklif edib. Rəsmi Vaşinqtonun fikrincə, həmin aktivlərin 50 milyard dolları Ukraynaya kredit qismində verilə bilər.
Görüşdə həmçinin, Çinin dünya bazarında genişlənən ixrac imkanları da nəzərdən keçiriləcək.

# Qızılın qiyməti rekord həddə çatıb

Yaxın Şərqdə artan geosiyasi gərginlik, eləcə də FED-in bu il pul siyasətini yumşaltmağa başlayacağına dair artan optimizm sayəsində qızılın qiyməti bütün zamanların ən yüksək səviyyəsinə qalxıb.
Yeni həftə əmtəələrin bahalaşması ilə başlayıb. Dünya bazarlarında qızılın unsiyasının qiyməti 2 min 450 dollar səviyyəsini görərək rekord həddə çatıb.
Qızılın unsiyası 1,1% bahalaşma ilə 2 min 441 dollardan ticarət olunub.
Ötən həftə ABŞ dolları ucuzlaşıb və Xəzinə istiqrazları çərşənbə günü açıqlanan məlumatların inflyasiyanın aprel ayında gözləniləndən daha çox azaldığını göstərməsindən sonra yüksəlib. Bu vəziyyət qızıla da dəstək verib.
Qızılın etibarlı sığınacaq statusu xüsusilə Yaxın Şərqdəki geosiyasi hadisələrin ardından yenidən gündəmə gəldib.
İran prezidenti İbrahim Rəisinin helikopter qəzasında həlak olması və İsraildə Qantsın müharibə qərargahından istefa verməsi geosiyasi risklərin artmasına səbəb olub.
Digər tərəfdən Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd Bin Salman Kral Salmanın səhhətinin pisləşməsi səbəbindən Yaponiyaya səfərini ləğv edib. Səudiyyə Ərəbistanının 88 yaşlı kralı Salman Bin Əbdüləziz ağciyər iltihabı səbəbindən xəstəxanaya yerləşdirilib.
Şənbə günü Qırmızı dənizdə Çinə gedən neft tankerinin husilər tərəfindən raket ilə vurulması da regionda geosiyasi risklərin artdığına işarə edib.
Qızılla yanaşı, digər əmtəələr - gümüş, palladium, platin, mis də bahalaşıb.
Gümüşün qiyməti cümə günü 11 ilin ən yüksək səviyyəsinə çatıb.
İsraildə istefa, İran prezidenti İbrahim Rəisinin helikopter qəzasında ölməsinin və Səudiyyə Ərəbistanı kralının səhhətinin pisləşməsinin Yaxın Şərqdə geosiyasi risklərin artması ilə nəticələnə biləcək yeni qeyri-müəyyənlikləri ortaya çıxaracağı gözlənilir.

## ABŞ-nin dövlət borcunun rekord həddə çatacağı proqnozlaşdırılır

ABŞ Konqresinin büdcə idarəsi ölkənin dövlət borcunun 2054-cü ilədək ümumdaxili məhsulun (ÜDM) 166 faizinə çatacağını proqnozlaşdırır ki, bu da ölkə üçün rekord göstəricidir.
Bu barədə ABŞ Konqresinin büdcə idarəsinin dərc etdiyi məlumatlarda deyilir. Məlumatlara əsasən, ABŞ-nin dövlət borcu 2024-cü ildəki göstəricidən,yəni ÜDM-in 99 faizindən 2054-cü ildə ÜDM-in 166 faizinə çatacaq. Qeyd olunub ki, ABŞ-nin dövlət borcu qeydə alınmış rekord göstəricilərini ötəcək və artmağa davam edəcək.

# BANK KARTINIZIN NÖMRƏSİNİ İSTƏSƏLƏR...

***Bank rekvizitləri haqqında məlumatları vermək nə dərəcədə təhlükəlidir?***
Bank kartları ilə bağlı fırıldaqların sayı azalmaq bilmir. Rusiya Mərkəzi Bankının məlumatına görə, 2021-ci ilin ikinci rübündə Rusiya vətəndaşlarının kartlarından 3 milyard rubldan çox pul oğurlanıb. Bu necə baş verir? Statistika göstərir ki, çox vaxt müştəri psixoloji manipulyasiyaya məruz qalaraq ödəniş məlumatlarını üçüncü şəxslərə bilərəkdən açıqlamalı olur. Alış-veriş edərkən, İnternet səhifələrində bank əməliyyatları yerinə yetirərkən ödənişlər zamanı məhz bank kartlarından istifadə olunur. Özünüzü və kartlarınızı necə qorumalı və pul itirməmək üçün hansı detalları kənar şəxslərə verə bilərsiniz? – bu barədə sizinlə söhbətimiz.




**Bank kartı rekvizitləri**
Bank kartı, onlayn və oflayn rejimdə mal və xidmətlər üçün ödəniş edərkən müştərinin hesabı ilə əməliyyatlar aparmağa imkan verən plastik daşıyıcıdır. Vəsaitləri silmək və kreditləşdirmək üçün kartı əlinizdə saxlamaq lazım deyil - onun ödəniş məlumatları kifayətdir. Plastik daşıyıcıda göstərilən bütün məlumatlar ödəniş məlumatı deyil.
**Vəsaitin silinməsi üçün tələb olunan rekvizitlərə aşağıdakılar daxildir:**
• ön tərəfdə çap edilmiş və 16 və ya 18 rəqəmdən ibarət kartın nömrəsi;
• nömrənin altında ön tərəfdə kartın son istifadə tarixi;
• sahibinin soyadı və adı;
• arxa tərəfdə maqnit zolağının yanında göstərilən təhlükəsizlik kodu adlandırılan üç rəqəmli CVV kodu
Bir sıra əməliyyatlar müştəriyə SMS və ya push bildirişləri vasitəsilə göndərilən parol ilə təsdiq tələb edir. O, hər bir əməliyyat üçün ayrıca yaradılır, məhdud müddətə malikdir və yalnız sahibinin müqavilədə göstərdiyi nömrəyə və ya bank proqramı quraşdırılmış və aktivləşdirilmiş hesabı olan mobil cihaza göndərilir.
**Kart hesabınıza ödəniş etmək üçün:**
• kartın nömrəsi;
• sahibinin adı, atasının adı və soyadının baş hərfindən istifadə edin.
Plastik daşıyıcıda əks olunmayan məlumatlara bank kartı hesab nömrəsi və PİN kodu daxildir. Hesab nömrəsini kağız müqavilədə, mobil tətbiqetmədə və ya bankın veb saytındakı şəxsi hesabda tapmaq olar. Plastik daşıyıcıdan istifadə etməklə ödənişlər edərkən kart əməliyyatlarını təsdiqləmək üçün PİN tələb olunur. Əgər kimsə sizdən bu məlumatı telefonla istəsə, - o fırıldaqçıdır.
**Rekvizitləri bilən fırıldaqçı nə edə bilər?**
Siz kart sahibi kimi pul köçürmələrini qəbul edib göndərə, alış-veriş üçün ödəniş edə, depozitlər aça, kommunal ödənişləri ödəyə, mobil telefon hesabınızı doldura və digər ödəniş əməliyyatlarını həyata keçirə bilərsiniz.
Kart məlumatlarınızı ələ keçirmiş fırıldaqçılar bütün bu hərəkətləri edə bilərlər. Onlayn ödənişlər edərkən heç də həmişə SMS şəklində kod tələb olunmur. Əksər onlayn xidmətlər təsdiq kodunu daxil etmədən vəsaitlərin silinməsinə icazə versə də, yalnız kart əvvəllər əlaqələndirilib və təsdiqlənibsə, pul itirmək riski var.
Fırıldaqçılar nə qədər çox məlumat bilsələr, vəsaitlərin oğurlanması imkanları bir o qədər geniş olar:
• yalnız kart nömrəsi, adınız və soyadınız məlumdursa – kənar şəxs tərəfindən ödəniş əməliyyatları icra edilə bilməz;
• kartın nömrəsi, tam adı, istifadə müddəti - bəzi onlayn mağazalarda alış-veriş üçün ödəniş mümkündür. Məsələn, Amazon-da təhlükəsizlik kodunu və SMS təsdiqini daxil etmək tələb olunmur;
• kart nömrəsi, sahibinin tam adı, istifadə müddəti, CVV kodu - siz bir sıra onlayn mağazalarda alış-veriş edə, kartı Google hesabınızla əlaqələndirə bilərsiniz ki, bu da Google Pay vasitəsilə, o cümlədən üçüncü tərəf vasitəsilə, məsələn, AliExpress kimi resurslarla alış-veriş üçün ödəniş etməyə imkan verir;
• kartın nömrəsi, sahibinin tam adı, istifadə müddəti, SMS-dən CVV kodu - bu məlumatlar istənilən alış-veriş üçün ödəniş etmək, köçürmə etmək, depozit açmaq, kredit götürmək, elektron pul kisəsi hesabınızı doldurmaq imkanı verir.
**Bank kartının nömrəsini kiməsə demək təhlükəlidirmi?**
Yalnız kartın nömrəsini və sahibinin adını bilməklə kartdan pulu silmək mümkün deyil. Əgər sizdən kartınızın nömrəsini istəyirlərsə, məsələn, məşhur elanlar saytında nəyinsə satışını elan edərkən, siz onu verirsiniz və onlar sizdən əlavə məlumat tələb etməyə başlayırlar: son istifadə tarixi, arxasındakı kod və ya sadəcə başqa bir bankdan köçürmə və ya terminal vasitəsilə ödəniş bəhanəsi ilə SMS-dən nömrə - bu zaman heç düşünmədən söhbəti bitirin, bunlar fırıldaqçılardır.
Ancaq qorxmağa ehtiyac yoxdur: kart nömrənizi təqdim etməyiniz onlara heç bir şey etməyə imkan verməyəcək - nömrədən istifadə edərək pulu silə bilməzlər.
Bununla belə, kart nömrəniz varsa, pulun geri qaytarılması üçün əlavə sorğu ilə öz adınıza köçürmə etmək mümkündür. Siz pulu qaytarırsınız, avtomatik ödəniş kartınıza qoşulur və müntəzəm debetlər başlayır. Digər bir fırıldaq növü "kredit müqaviləsi üzrə vəsaitlərin kreditləşdirilməsi" ifadəsi qeyd olunan pul köçürmələridir. Bunun ardınca məlumatlarınız üçün kredit müqaviləsi açıldığını bildirən "mütəxəssis" zəngi gəlir və siz pulu fazilə qaytarmalısınız. Hər iki halda siz filialda yazılı şəkildə və ya qaynar xəttə zəng edərək şifahi olaraq pul vəsaitlərinin səhv hesablanması barədə bankınıza məlumat verməli və fırıldaqçılarla danışıqlara getməməlisiniz. Pul xərclənə bilməz: prosedur başa çatdıqdan sonra bank onu sizdən siləcək və göndərənə qaytaracaq.
Məlumatlarınızdan narahat olmamaq üçün SÖS-dən - kartdan karta, hətta digər banklara belə, ayda 100 000-ə qədər komissiyasız köçürməyə imkan verən sürətli ödəniş sistemindən istifadə edin. Əgər sizdən pul köçürmək üçün kart nömrəsi istənilirsə, telefon nömrənizi verin və kartın hansı bankdan olduğunu, adınız və ata adınızı deyin. Başqa heç bir məlumat tələb olunmur, heç bir bank kartı rekvizitləri tələb olunmur.
**Hansı məlumatları kənar şəxslərlə paylaşmaq olar?**
Göndərən SÖS-dən istifadə edə bilmirsə və digər təfərrüatları soruşursa, siz aşağıdakı məlumatları verə bilərsiniz:
• tam kart hesabı rekvizitləri, o cümlədən bank məlumatları - sadəcə olaraq bu məlumatı mobil proqramdan yönləndirin;
• kartın nömrəsi, ad, ata adı, soyadın baş hərfi.
Karta köçürmək üçün başqa məlumat tələb olunmur. Yad adamlara kartın son istifadə tarixini, arxasındakı rəqəmi və SMS-dən gələn kodu söyləməyin.
**Ödəniş məlumatlarınızı fırıldaqçılara vermisinizsə, nə etməli?**
Fırıldaqçılar bank kartı məlumatlarını müxtəlif yollarla əldə edirlər. Bəzən siz hətta məlumatın oğurlandığını bilmirsiniz. İnformasiya sızmasının ən çox yayılmış kanallarına aşağıdakılar daxildir:
• fishing saytlarına ödəniş məlumatlarının müstəqil daxil edilməsi;
• SMS, elektron poçt, messencerlərə linklər vasitəsilə daxil olunması;
• fırıldaqçılarla telefon danışığı zamanı. Bütün bu hallarda siz bilmədən məlumatlarınızı fırıldaqçılara ötürmüş olursunuz.
Əgər məlumatlarınızı hardasa bildirmisinizsə və ya daxil etmisinizsə və indi pulunuzun təhlükəsizliyindən narahatsınızsa və ya artıq pulunuz silinməyə başlayıbsa, dərhal kartı bloklayın. Bunu bankın qaynar xəttinə zəng etməklə etmək olar, lakin ən sürətli yol mobil tətbiqdən istifadə etməkdir.
Kart bloklandıqdan sonra siz bildiyiniz fırıldaqçılar haqqında bütün məlumatları təqdim edərək, hadisə ilə bağlı banka və polisə məlumat verməlisiniz. Pulunuzu geri qaytarmaq şansları azdır, lakin bəzən mümkün olur.
**Kartlarınızın təhlükəsizliyini artırmaq üçün aşağıdakı sadə qaydalara əməl edin:**
• bütün xərclər haqqında SMS almaq üçün mobil bankınızı qoşun;
• kartı tanımadığınız şəxslərə verməyin, sizdən ətraflı məlumat istənilsə, onun şəklini göndərməyin;
• karta PİN kod yazmayın, pul kisənizdə və ya telefonunuzdakı fotoşəkildə ödəniş proqramları üçün parol saxlamayın;
• saytın təhlükəsiz olduğuna əmin deyilsinizsə, İnternetdə heç bir şey üçün ödəniş etməyin.
Bankdan zəng vurublarsa, telefonu qapadın və banka özünüz zəng edin. Sizə adınız, ünvanınız, şəxsiyyət vəsiqənizin məlumatları və ya kart nömrəniz göstərilsə belə, bu, zəng edən şəxsə etibar etmək üçün əsas deyil.
Unutmayın ki, hazırda məlumat sızması qlobal dünya problemlərindən biridir.

**Yeganə Məmmədova,**

# Qlobal bazarlarda son vəziyyət

Statistik məlumatlara əsasən Yaponiya yeni dollar qarşısında bir qədər dəyər itirib. Belə ki, yaxın günlərdə 155.840 səviyyəsinə qədər eniş etmiş USDJPY valyuta cütlüyü, daha sonra 156.320 səviyyəsinə qədər bahalaşıb. EURUSD və GBPUSD cütlükləri isə müvafiq olaraq 1.0854 və 1.2710 səviyyələrində qərarlaşıblar. Dollar indeksi 0.01% azalaraq 104.65 bənd təşkil edib.
Analitiklər Yaponiyanın aprel ayında ixracatının 11.1% artdığını proqnozlaşdırsalar da, illik müqayisədə göstərici 8.3% artıb. Hesabat ayında ölkəyə idxal isə 8.3% artıb. Ekspertlər 9%-lik artım ehtimal edirdilər. Cümə günü investorlar Yaponiyada aprel ayı üzrə inflyasiya məlumatlarının dərc olunmasını maraqla gözləyirlər. Qeyd etmək lazımdır ki, mart ayında ölkədə illik inflyasiya öncəki ay ilə müqayisədə 2.8%-dən 2.7%-ə qədər enmişdir.
Həmçinin ekspertlər düşünürlər ki, ABŞ Federal Ehtiyatlar Sisteminin (FED) çərşənbə günü dərc edəcəyi may ayı üzrə toplantısının protokolları dolların dəyərinə təsir edə bilər. İnvestorlar toplantı protokollarında daha çox ipucu əldə etməyi proqnozlaşdırırlar. Məlumata əsasən, əksər ekspertlər FED-in sentyabr ayında faiz dərəcələrini endirəcəyini ehtimal edirlər.
Əlavə olaraq, FED toplantısının protokollarının dərci ərəfəsində qızılın qiyməti eniş göstərir. Dəyərli metalın qiyməti bazar ertəsi bütün tarixi rekordunu yenilədikdən sonra, ardıcıl ikinci gündür ki, ucuzlaşır. Hal-hazırda qızıl 2412$ səviyyəsində ticarət olunur.
Məlumat İnvest.az İnvestisiya Şirkətinin analitikləri tərəfindən hazırlanıb.



# Türkiyənin Başkent Universitetinin qurucusu Mehmet Haberal Mərkəzi Gömrük Hospitalını ziyarət edib




17 may 2024-cü il tarixində, Türkiyənin Ankara şəhərində yerləşən Başkent Universitetinin qurucusu, Türkiyədə ilk dəfə 1975-ci ildə orqan transplantasiyası əməliyyatı icra etmiş Prof. Dr.Mehmet Haberal, Başkent Universitetinin rektoru Prof. Dr. Hakan Özkardeş, Təhsil sektorunun müdiri Turhan Namazov, baş koordinator Feyaz Artukoğlu və digər qonaqlar Mərkəzi Gömrük Hospitalını ziyarət ediblər. Mərkəzi Gömrük Hospitalının rəisi-baş həkimi Bəxtiyar Musayev nümayəndə heyətini səmimi qarşılayaraq Hospitalın strukturu, fəaliyyəti, eləcə də son illər ərzində orqan transplantasiyası sahəsində əldə edilən nailiyyətlər, respublikanın bir çox regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında təşkil etdiyi tibbi-sosial aksiyalar barədə ətraflı məlumat verib.

Prezident İlham Əliyevin milli səhiyyənin inkişafına böyük diqqət və önəm verdiyini vurğulayan Bəxtiyar Musayev bu sahənin modernləşdirilməsi, rəqəmsallaşdırılması, insan kapitalının inkişaf etdirilməsi və səhiyyə iqtisadiyyatının gücləndirilməsinin dövlətimiz üçün prioritet məsələlərdən biri olduğunu qeyd edib. Bəxtiyar Musayev bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də dövlət siyasətini dəstəkləyən Dövlət Gömrük Komitəsinin ayrılmaz bir hissəsi olan Hospitalın, davamlı şəkildə yenidənqurma işlərini apardığını, modernizasiya prinsipini əsas tutaraq müasir texnologiyaların istifadəsi ilə yeni tibbi xidmətlər tətbiq etdiyini və peşəkar kadrlar yetişdirdiyini qonaqların diqqətinə çatdırıb.

Prof. Dr.Mehmet Haberal Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində uğurla inkişaf etdiyini, gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini bildirib. Professor Mehmet Haberal həyat və yaradıcılığına həsr olunmuş "Yaşamaq gözəldir, yaşatmaq sonsuz" kitabını öz imzası ilə Dr.Bəxtiyar Musayevə hədiyyə edib.

Görüş qarşılıqlı əməkdaşlıq, müştərək tədbirlərin keçirilməsi və digər məsələlərin müzakirəsi ilə davam edib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# Belarus Gömrük xidmətinin rəhbəri Mərkəzi Gömrük Hospitalının fəaliyyəti ilə tanış olub

Ölkəmizdə səfərdə olan Belarus Respublikasının Dövlət Gömrük Komitəsinin sədri Vladimir Orlovski 17 may 2024-cü il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Mərkəzi Hospitalının fəaliyyəti ilə tanış olub. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini, Gömrük xidməti general-mayoru Cavad Qasımov, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva qonağı müşayiət edərək Mərkəzi Gömrük Hospitalının şöbələrinin fəaliyyəti barədə ətraflı məlumat veriblər. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov diqqətə çatdırıb ki, yüksəkixtisaslı tibbi personala malik olan, ən müasir texnologiyaların tətbiq edildiyi Mərkəzi Gömrük Hospitalı 2008-ci ildən fəaliyyət göstərir və qısa zaman kəsiyində ölkənin qabaqcıl tibb ocaqlarından birinə çevrilib. Qeyd olunub ki, Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq İlqar Tahiroğlu və onun komandası tərəfindən İcbari Tibbi Sığortanın Xidmətlər Zərfi çərçivəsində TAVİ, EVAR, TEVAR əməliyyatları böyük uğurla icra olunur, angioqrafiya metodu ilə damarlarda olan daralma, tıxanma və qan axınındakı olan problemlərin müayinə və cərrahi müalicəsi aparılır.



Daha sonra Belarus Gömrük xidmətinin rəhbəri Mərkəzi Gömrük Hospitalının MRT, Laboratoriya, PZR laboratoriyanın imkanları ilə tanış olub, əməkdaşlığın genişləndirilməsi kimi məsələlər müzakirə edilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# "AZİNVEST İnşaat" QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Qeyri maddi aktivlər | 7175 | 10515 |
| Torpaq, tikili və avadanlıqlar | 1581956,57 | 3589669,37 |
| Daşınmaz əmlaka investisiyalar | | |
| Bioloji aktivlər | | |
| Təbii sərvərlər | | |
| İştirak payı metodu ilə uçotaalınmış investisiyalar | 2000337,27 | 0 |
| Təxirə salınmış vergi aktivləri | | |
| Uzunmüddətli debitor borcları | | |
| sair üzünmüdətli maliyyə aktivləri | | |
| sair uzunmüdətli aktivlər | | |
| **Cəmi uzunmüdətli aktivlər** | **3589468,84** | **3600184,37** |
| Qısamüddətli aktivlər | | |
| Ehtiyatlar | 579739,29 | 2148348,79 |
| qısamüddətli debitor borcları | 1832221,03 | 2289142,92 |
| pul vəsaitləri və onların ekvivalentləri | 4322107,31 | 5976762,16 |
| sair qısamüdətli maliyyə aktivləri | | |
| sair qısamüdətli aktivlər | 2209713,4 | 3971478,69 |
| **Cəmi qısamüdətli aktivlər** | **8943781,03** | **14385732,56** |
| **CƏMİ AKTİVLƏR** | **12533249,87** | **17985916,93** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| ödənilmiş nominal (nizamnamə) kapital | 2000 | 2000 |
| emissiya gəliri | | |
| Geri alınmış kapital(səhmlər) | | |
| kapital ehtiyatları | | |
| bölüşdürülməmiş mənfəət(ödənilmiş zərər) | 2497895,36 | 2914373,68 |
| **Cəmi kapital** | **2499895,36** | **2916373,68** |
| Cəmi uzunmüddətli öhdəliklər | | |
| Qısamüddətli öhdəliklər | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | 8031955,75 | 10249084,55 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1349750,05 | 2380596,36 |
| qısamüddətli kreditor borcları | 632338,78 | 824603,23 |
| sair qısamüddətli öhdəliklər | 19309,93 | 1615259,11 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **10033354,51** | **15069543,25** |
| **Cəmi öhdəliklər** | **10033354,51** | **15069543,25** |
| **Cəmi kapital və öhdəliklər** | **12533249,87** | **17985916,93** |

| MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 25941458,25 | 38077808,44 |
| satışın maya dəyəri | | |
| **Umumi mənfəət** | **25941458,25** | **38077808,44** |
| sair əməliyyat gəlirləri | 169211,99 | 257602,22 |
| Kommersiya xərcləri | 10459858,2 | 15999670,58 |
| inzibati xərclər | | |
| sair əməliyyat xərcləri | 13316085,19 | 18820711,35 |
| Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | **2334726,85** | **3515028,73** |
| Maliyyə mənfəəti | | |
| Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərin) pay | | |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) keçmiş illərin zərəri | | |
| Mənfəət vergisi | 466945,37 | 703005,76 |
| **Adi fəaliyyətdən mənfəət(zərər)** | | |
| Fövqaladə mənfəət(zərər) | | |
| hesabat dövründə xalis mənfəət (zərər) | | |
| Bazis hər bir səhmin mənfəəti | | |
| Qatılmış hər bir səhmin mənfəəti | | |
| Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişiliklər | | |
| Müəssisə tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | |
| İstifadə edilmiş material ehtiyatları | 8093171,42 | 11642503,6 |
| İşçi heyəti üzrə xərclər | 1667847,73 | 3101730,4 |
| Amortizasiya xərcləri | 698839,05 | 1255436,58 |
| Sair əməliyyat xərcləri | 13316085,19 | 18820711,35 |
| **CƏMİ ƏMƏLİYYAT XƏRCLƏRİ** | **23775943,39** | **34820381,93** |

International Audit Tax & Consulting LLC
İATC
Baku AZ1131 Azerbaijan Republic
Surakhani Yeni Guneshli setl AB
house 8 apartm 27
Phone: +(994) 50 625 03 75
e-mail: iauditcllc@gmail.com

*"İATC" Məhdud Məsuliyyətli Cəmiyyəti*
*VÖEN: 1905410441*
*AR Auditorlar Palatası tərəfindən verilmiş 16 yanvar 2023-cü il tarixli AT/261 №-li İcazə*

№ 9LOJSJGTc7 "15" may 2024-cü il

**MÜSTƏQİL AUDİTOR HESABATI**

**Rəy**

Mən "AZİNVEST İNŞAAT" Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN 1702336441) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətinin hesabatından, məcmu gəlirlər hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Cəmiyətin maliyyə hesabatlarına əsasən 2023-cü il üzrə ümumi gəliri 38 335 410.66 (Otuz səkkiz milyon üç yüz otuz beş min dörd yüz on manat 66 qəpik)ümumi xərci isə 34 820 381.93(Otuz dörd milyon səkkiz yüz iyirmi min üç yüz səksən bir manat 93 qəpik) beləliklə cəmiyyətin 31.12.2023-cü il tarixə bölüşdürülməmiş mənfəəti 3 515 028.73(Üç milyon beş yüz on beş min iyirmi səkkiz manat 73 qəpik) olmuşdur. 2023-cü il üzrə ödənilməli mənfəət vergisinin məbləği 703 005.75(Yeddi yüz üç min beş manat 75 qəpik) xalis mənfəəti isə 2 812 022.98(Iki milyon səkkiz yüz on iki min iyirmi iki manat 98 qəpik) olmuşdur.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**"İATC" MMC-nin direktoru** **Rüfət ŞÜKÜROV**

# Məhsul boldur, qiyməti 4 dəfə aşağı düşüb

Cəlilabad rayonunda çiyələyin qiyməti 4 dəfəyə yaxın aşağı düşüb.

Yerli fermerlərin Muğan bürosuna verdiyi məlumata görə, məhsulun ilkin yetişmə dövründə kiloqramı 5-7 manat arası olan çiyələk hazırda 1 manat 50 qəpiyə satılır. Bunun səbəbi məhsulun bol olması və əkin sahələrinin genişlənməsi ilə əlaqələndirilir.



Qeyd edək ki, bu il Cəlilabad rayonunda 560 hektar sahədə çiyələk əkini aparılıb. Bu rəqəm də ötənilki göstəricidən 55 hektar çoxdur.

# E L A N

**"Bakı Şampan Şərabları" ASC bəyan edir ki, 16-22 may 2024-cü il tarixli "İqtisadiyyat" qəzetinin 19-cu sayında dərc edilmiş maliyyə hesabatında vergiqoymadan əvvəl mənfəət (zərər), adi fəaliyyətdən mənfəət və ya zərər, hesabat dövründə xalis mənfəət (zərər) xanalarındakı 2109710 manat zərər kimi qəbul edilsin.**

# "Bakcell"in Baş İcraçı Direktoru Müasir Təhsil Kompleksinin şagirdləri ilə görüşüb

Ölkənin ən böyük özəl telekommunikasiya şirkəti Bakcell, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin (MTK) şagirdləri ilə dinamik panel müzakirəsi keçirib. "Təhsildə innovasiya və süni intellektin rolu" adlı paneldə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller, MTK-nın Baş İcraçı Direktoru Aygün Mikayılova və məktəbin şagirdləri iştirak edib. Tədbirin mövzusuna uyğun olaraq, müasir təhsildə innovasiya və yüksək texnologiyaların rolu barədə maraqlı mövzular haqqında danışılıb.

*"Bu gün burada Azərbaycanın savadlı gəncləri ilə bir araya gəlməkdən çox zövq aldım. İnnovasiyaları təmsil edən bir şirkət kimi texnologiyaya maraq göstərən, gələcək yönümlü şagirdləri görmək bizi sevindirir. Bizim gənclərlə bir çox ortaq cəhətimiz var: bunlardan ən önəmlisi isə innovasiyaya sadiqliyimizdir"*, - deyə Klaus Müller bildirib.

*"Biz şagirdlərimizin akademik potensiallarını inkişaf etdirməklə yanaşı, onların digər sahələrdə də istedadlarının aşkar edilməsi üçün çalışırıq. İnnovasiya yönümlü şagirdlərimizin ən son texnoloji yenilikləri Bakcell kimi şirkətdən əldə edə bilmələri bizim üçün böyük uğurdur. Bugünkü maraqlı panel müzakirəsinə görə məktəbimiz adından Bakcell rəhbərliyinə təşəkkürümüzü bildirirəm"*, - deyə Aygün Mikayılova bildirib.

Şagirdlərlə görüşdə Bakcell-in süni intellekt dəstəkli humanoid robotu Ardi də iştirak edib. Sual-cavab sessiyası ilə davam edən panel müzakirəsində şagirdlər Bakcell-in rəhbər heyəti və Ardiyə öz suallarını yönləndirərək, yeni texnologiyaların, süni intellektin təhsilə tətbiqini müzakirə ediblər. Sonda şirkətin rəhbər heyəti məktəbin STEAM laboratoriyasına baş çəkib. Şagirdlərin qabaqcıl texnologiyalardan istifadə edərək hazırladıqları layihələri və laboratoriyanın dövrün tələblərinə uyğun təmin olunması Bakcell rəhbərliyinin diqqətini çəkib.






**Azəri Light markalı neftin bir barelinin 15 – 22 may tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500